Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 221 (1349) 1 dekabr - 2 dekabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# QOBUSTAN: ARZULARIN İŞIĞINDA

(əvvəli ötən sayımızda)

### *Bu rayonda maldarlıq ənənəvi sahədir*

**Rayonda heyvandarlıq da inkişaf etməkdədir. 9 ayda iri buynuzlu mal-qaranın baş sayı 3 faiz artaraq 30 min 542 başa, o cümlədən inək və camışların baş sayı 4 faiz artaraq 11 min 393 başa çatmışdır. Heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılması qarşıda duran əsas vəzifələrdən biridir.Doğrudur bu gün yalnız bir iri cins mal-qara təsərrüfatı yaranmışdır.Belə təsərrüfatların sayı artırılmalıdır.**

Süni mayalamaya xüsusi fikir verilməlidir. Bu ilin doqquz ayında 404 baş qaramal cins buğa toxumu ilə mayalandırılmış, 44 bala alınmışdır. Əlbəttə ki, bu aşağı göstəricidir. Bu sahəyə xüsusi diqqət yetirilməlidir.

9 ayda qoyun və keçilərin sayı 2 faiz artaraq 190375 başa, quşların baş sayı isə 1 faiz artaraq 87080 başa çatmışdır.

Rayonda ət istehsalı 2,2 faiz artaraq 4425 tona, süd istehsalı 2,3 faiz artaraq 13264 tona, yun istehsalı 1,4 faiz artaraq 357,6 tona, yumurta istehsalı 3,3 faiz artaraq 5 milyon 880 ədəd çatmışdır.

Dövlətin kənd təsərrüfatına göstərdiyi yüksək diqqət və qayğı, verilən subsidiyalar, texnikanın 40 faiz, damazlıq heyvanların 50 faiz, mineral gübrələrin 70 faiz dəyərinin ödənilməsi, ziyanvericilərə qarşı mübarizə vasitələrinin pulsuz olaraq verilməsi rayon sakinləri tərəfindən razılıqla qarşılanır və onları bu sahəyə daha məsuliyyətli yanaşmağa, daha işgüzar olmağa ruhlandırır. Bu ilin doqquz ayında Sahibkarlığa Kömək Milli Fondu



> **"... İqtisadi müstəqillik bizim üçün böyük imkanlar açır. Biz iqtisadi müstəqilliyimizi düşünülmüş siyasətlə, aparılan islahatlarla, investisiya siyasətimizlə və regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası ilə təmin etmişik".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

Tərəfindən 13 layihə üzrə 150,0 min manat güzəştli kredit ayrılmışdır.

Ümumilikdə respublikamızın hər bir bölgəsi kimi Qobustan rayonu da cənab Prezidentin yüksək qayğısı ilə əhatə olunmuşdur. Təkcə bu ilin əvvəlində 08.02.2016-cı il tarixli Sərəncamı ilə - 15 min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Təklə-Sündü-Xilmilli avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədi ilə "Azəryolservis" Açıq Səhmdar Cəmiyyətinə 700,0 min manat, 2016-cı il 1 iyul tarixli 2189 nömrəli Sərəncamına əsasən Təklə Mirzəbaba kəndində 1 ədəd subartezian quyusunun qazılması üçün Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə vəsait ayrılmışdır. Göstərilən bu diqqət və qayğıya görə rayon əhalisi cənac Prezidentə öz dərin minnətdarlığını bildirir.

### *Xidmət sahələrinin fəaliyyətini günün tələbləri səviyyəsinə*

Rayonda elektrik enerjisi, təbii qaz və içməli su ilə təminat sahəsində9 ayda bir sıra mühüm işlər görülmüşdür. "Azərişıq" SC-i tərəfindən 10 kV-luq hava xətlərində istismara yararsız dayaq, naqil və izolyatorların əvəzinə 182 ədəd 10 kV-luq metal dayaq quraşdırılmış, təmir işlərində 22,60 km naqil və 717 ədəd izolyator istifadə edilmişdir. 9 müxtəlif güclü yeni komplekt transformator məntəqəsi şəbəkəyə qoşularaq istismara verilmişdir. Rayon üzrə 13 ədəd transformator tam kabelləşdirilmiş, ümumilikdə Qobustan şəhər, Təklə, Ərəbşalbaş, Poladlı və Çalov kəndlərində 1245 abonent yeni sistemə keçirilmiş, bir sıra kəndlərdə isə cari təmir işləri aparılmışdır. Bu sahədə işlərin sürətləndirilməsi zəruridir. Hələ də təchizat sistemində çoxsaylı qəzalı dayaqlar, yararsız elektrik xətləri mövcuddur. Hava şəraiti pisləşən kimi elektrik şəbəkəsində çoxsaylı açılmalar baş verir. Bundan əlavə Şəhərin "Ferma yeri" adlanan ərazisində və Təsi kəndində elektrik təchizatında müəyyən problemlər vardır. Bu məsələlər tezliklə öz müsbət həllini tapmalıdır.

Rayon üzrə istehlak edilmiş elektrik enerjisinin dəyəri ümumilikdə 90,03 faiz, əhali üzrə isə 89,88 faiz toplanmışdır.

Son illər rayonda əhalinin təbii qazla təminatı sahəsində mühüm işlər görülmüşdür. Artıq əhalinin 93 faizi təbii qazdan istifadə edir.Bu ilin doqquz ayında 5926 fərdi abonentin mənzilinə, 115 qeyri əhali sektoruna baxış keçirilmişdir. Qobustan şəhəri Heydər Əliyev prospektində 850 m boru rənglənmiş, Ş.Şikarov küçəsində, şəhərin Nərimankənd adlanan hisəsində, Cəyirli kəndində ümumilikdə 547m müxtəlif diametrli korroziyaya uğramış borular yenilənmişdir.9 ayda rayon üzrə istehlak olunmuş təbii qazın dəyəri əhali üzrə 97,5 faiz ödənilmiş, ümumi itki 0,47 faiz təşkil etmişdir ki, bu da Respublika üzrə ən yaxşı göstəricidir.



Uzun danışıqlardan sonra şəhərin "Ferma yeri" adlanan ərazisinin qazlaşdırılması ilə bağlı razılıq alınmışdır. Hava şəraiti imkan verən kimi işə başlanılacaqdır.

Şəhərdə böyük su və kanalizasiya layihəsi həyata keçirilir. 2016-cı ilin oktyabr ayının 1-dək 58290 m su xətti, 7610 msu magistral xətti, 48602 m kanalizasiya xətti çəkilmiş, 6 ədəd 60 m dərinlikdə artezian quyu qazılmışdır. Su təmizləyici qurğuya gedən 680 m magistral boru xətti çəkilmişdir. İçməli su təminatı üzrə 1327, kanalizasiya üzrə 2442 ədəd ev birləşməsi verilmiş, 1036 ədəd kanalizasiya quyusu qazılmış, 96 ədəd yanğından mühafizə hidrantları quraşdırılmışdır. Hər birinin tutumu 500 m3 olan 3 ədəd su anbarının tikintisi davam etdirilir.Növbəti ilin ortalarında işlərin yekunlaşdırılması planlaşdırılır. Bu sahədə ictimai nəzarət çox güclü olmalı, heç bir yaşayış evinin kənarda qalmasına yol verilməməlidir. Eyni zamanda şəhər təsərrüfatına dəyən ziyan da aradan qaldırılmalıdır.

**İçməli su ilə təmin olunan əhali tərəfindən 9 ayda istehlak edilmiş suyun dəyəri 105 faiz ödənilmişdir.**

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ